# Uşaqlara dəyərli olduqlarını hiss etdirin.




Valideynlər arasındakı münasibətlər-
ailədə şəxsiyyətlərarası münasibətlərin
ən əsas aspektidir.

Uşağın tərbiyəsində ətraf mühit, təhsil müəssisələri (bağça, məktəb, məktəbdənkənar tərbiyə müəssisələri), informasiya vasitələri və s. ilə yanaşı əsas missiya ailənin üzərinə düşür. Valideynlər arasında uşaqların tərbiyəsi ilə bağlı həmrəylik olmalıdır. Valideynlər, aralarında yaranan fikir ayrılığını uşağa hiss etdirməməlidir.





Ailədə ata da uşağın tərbiyəsində ana qədər yaxından iştirak etməli, övladının düzgün yetişməsində anaya dəstək olmalıdır.Dünyaya gəldiyi andan etibarən uşaq ata sevgisinə ehtiyac duyar, atanın qucağında özünü güvəndə hiss edər, onunla isti münasibətdən zövq alar.





Validեynlik uşaqların sadəcə fiziki və maddi ehtiyaclarını ödəmək deyil, valideynlik həmçinin psixososial ehtiyacları (sevmək, dəyər vermək, yanında olmaq, dinləmək, bunu hiss etdirmək) vaxtında və mütəmadi olaraq qarşılamaqdır.

Şəxsiyyətin əsasını qoyan cəmiyyətin ilkin struktur vahidi ailədir. Məhz ailədə ilk tərbiyə alınır və uşaqlar ilk sosial təcrübəyə yiyələnir, bir şəxsiyyət kimi formalaşırlar. Unutmayaq ki, məhz ailə mühiti saf, isti və ülvi hisslərin təzahürüdür.

